

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Tariximizin kədər və ləyaqət səhifəsi

## 20 Yanvar faciəsindən 35 il ötür




Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 yanvar
2025-ci il,
şənbə
№ 010 (6838)
Qiyməti
60 qəpik

# Bütün qonşulara nümunə...

Bax səh. 2



# Azərbaycan - Gürcüstan: Möhkəm təməl üzərində strateji tərəfdaşlıq münasibətləri

Bax səh. 2

# Sərhədlərin delimitasiyasında yeni mərhələ...

Bax səh. 2

## "Türk Dünyasına Baxış 2040"...

Azərbaycanın strateji-coğrafi mövqeyi ölkəmizi regionun vacib tranzit və logistika mərkəzlərindən birinə çevirib. Respublikamız Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tərkib hissəsi olan Orta Dəhlizdə və Şimal-Cənub beynəlxalq nəqliyyat koridorunda öz tranzit potensialların dayanmadan artırır. Şərq və Qərb coğrafiyalarındakı mövcud nəqliyyat və logistika infrastrukturlarının əlaqələndirilməsi prosesləri isə Türk Dövlətləri Təşkilatına üzv (TDT) ölkələrinin iqtisadi inteqrasiyasının genişlənməsində mühüm rol oynamaqdadır. Bu barədə Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov yanvarın 16-da Bakıda keçirilən TDT Gömrük Xidməti Rəhbərlərinin X iclasında bildirib.

İclasda TDT ölkələri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması, "Transxəzər Gömrük Tranzit Portalı"nın fəaliyyəti, Elektron imza və müasir izləmə texnologiyalarının tətbiqi və digər istiqamətlərdə müzakirələr aparılıb. TDT-nin baş katibi Kubaniçbek Omuraliyev bildirib ki, qlobal çağırışlar fonunda sərhədlərarası ticarətdə çətinliklər müşahidə olunmaqdadır. Nəqliyyat və logistika xərcləri, uzun məsafələr, sənədlərin yoxlama müddətləri, gömrük və tranzit prosedurları son nəticədə tranzit daşınmalarındakı intensivliyə təsir göstərir. Ona görə də, türk dövlətləri müəyyən etdikləri "Türk Dünyasına Baxış 2040" strateji sənədinə uyğun olaraq, Orta Dəhliz boyunca gömrük və ticarət proseslərini asanlaşdırmağı hədəfləyib. Həmin hədəflər çərçivəsində Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması və "Bir pəncərə" prinsipinin tətbiqi başlıca yer tutur. Həmçinin vahid gömrük informasiya sisteminin yaradılması, ortaq risklərin idarə edilməsi mexanizmlərinin formalaşdırılması, elektron ticarət sahəsində innovativ texnologiyaların və vahid bəyannamə sisteminin tətbiqi əsas prioritetlərdəndir.

"Qarabağ Bəyannaməsi"nin ...

Bax səh. 4

## Kərki necə işğal edildi?



Bax səh. 3

## YAP xalqın sonsuz güvənini qazanmış lider partiyadır

Bax səh. 5

## Yeni reallıqlar, növbəti hədəflər...

Bax səh. 5

## Xalqın etimadı böyük məsuliyyətdir

Bax səh. 6

## Sükuta sığınmaq, zənciri qırmaq

Bax səh. 7

## Rusiya özünə yeni düşmən axtarır...

Bu gün Rusiyada hakimiyyət dairələrinin sifarişlərini yerinə yetirən bəzi media qurumları ölkəmizə və xalqımıza qarşı qarayaxma kampaniyası aparır, xalqımızın ünvanına təhqirlər yağdırırlar. Hər kəsə aydındır ki, Rusiyada media qurumlarının heç bir razılıq olmadan Azərbaycana qarşı həqarətlər səsləndirməsi qeyri-mümkündür. Bu ölkədə media qurumları hakimiyyət dairələrinin iradəsindən kənar addım ata bilməzlər. Əgər belə olsa idi, həmin qurumlara qarşı çox ciddi tədbirlər görülərdi. Ancaq bu, baş vermir...

Bu gün Rusiyada Azərbaycanı təhqir edənlər dövlət orqanlarının nəzarəti altındadır. Onlar aidiyyatı orqanların icazəsi olmadan heç bir addım ata bilməzlər. Rusiyadakı media qurumları ölkəmizi məhz onların dili ilə təhqir edirlər. Sözsüz ki, bu prosesi idarə edən də əli hər yerə çatan aidiyyatı təhlükəsizlik orqanlarıdır.

Onların tapşırıqları ilə Rusiyadakı azərbaycanlılar gah neonasistlərin dili ilə hədələnir, gah da "Komsomolskaya pravda" və digər informasiya portallarında Azərbaycana qarşı heç bir əsası olmayan, yalan məlumatlar yayılır, ölkəmizə qarşı böhtanlar atılır və təhqirlər yağdırılır. Əslində, onlar bu cür davranışlar sərgiləməklə özlərini gülünc vəziyyətə qoyurlar.

Azərbaycana qarşı bu münasibət onu deməyə əsas verir ki, Rusiya özünü dost kimi aparmır və qonşusuna qarşı düşmən münasibət bəsləməyə üstünlük verir.

2024-cü il dekabrın 25-də Rusiya səmasında vurulan "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin qəzaya uğramasının səbəblərinə obyektiv münasibət sərgiləmək, öz ölkəsinin səhvini etiraf etmək və Azərbaycan xalqından üzür istəmək əvəzinə ölkəmizə və xalqımıza təhqirlər yağdırmaq və hədə-qorxuya əl atmalarına həyasızlıqdan başqa ad vermək olmaz.

Rusiyada müxtəlif pilotların danışıqlarını yaymaqla izi...

Bax səh. 7



## Gözlənilən məhkəmə başladı...

Bax səh. 4



## 100 illik saziş...

Bax səh. 7

# Bütün qonşulara nümunə...



Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü keçirilib.

Sonra Azərbaycan Prezidenti və Gürcüstanın Baş naziri mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə çıxış edən dövlətimizin başçısı qonaqları salamlayaraq görüşlərin müntəzəm xarakter aldığından məmnunluğunu bildirib. Son 10 ay ərzində Gürcüstan Baş nazirinin ölkəmizə üçüncü səfəri Gürcüstan-Azərbaycan əlaqələrinin dərin və mənalı olduğunu göstərir: “Bu səfərin xüsusi əhəmiyyəti var. Çünki Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra bu, Sizin ilk xarici səfərinizdir. Fürsətdən istifadə edərək, təmsil etdiyiniz “Gürcü Arzusu” Partiyasının seçkilərdəki qələbəsi münasibətilə Sizi bir daha səmimiyyətlə təbrik edirəm və Sizə, bütün komandanıza yeni uğurlar arzulayıram. Parlament seçkilərindən sonra ilk səfərinizi Azərbaycana həyata keçirməyiniz, təbii ki, Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Bu qərara görə Sizə xüsusilə təşəkkürümü bildirmək istəyirəm”.

Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər. İqtisadi sahədə yaxşı nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub. Əlbəttə, bu onu göstərir ki, hökumətinizin uğurlu iqtisadi siyasəti, sərmayələrin cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini qoyurlar.

Təbii ki, energetika sahəsindəki iki ölkə arasındakı əməkdaşlıq həm ölkələrimiz üçün, həm daha böyük, geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır. Birgə həyata keçirdiyimiz neft-qaz layihələri bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil edir. Təkcə onu demək kifayətdir ki, Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ildən-ilə ixrac artır. Keçən il bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi - ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Mənə verilən məlumata görə, Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni bu, doğrudan da çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək. Bizim yeni qaz yataqlarımız bu il işə düşəcək. Gələn il, ondan sonrakı illər üçün də yeni kəşf edilmiş yataqlar mövcuddur. Ona görə getdikcə təbii qazın ixracı artmalıdır və artacaqdır”.

Bununla paralel olaraq, Gürcüstan ilə birlikdə yaşıl enerji layihələrinin də həyata keçirildiyin söyləyən dövlətimizin başçısı yaşıl enerji layihəsinin də uğurla icra edildiyini bildirib: “Bu gün, eyni zamanda, Sizinlə təkbətək söhbət əsnasında bağlantıları və Orta Dəhliz layihəsini müzakirə etdik. Bizim ölkələrimiz burada da yaxın tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Bizim müvafiq qurumlarımızın koordinasiya şəklindəki fəaliyyəti bu layihəni də əminəm ki, uğurla başa çatdıracaq. Burada, əlbəttə ki, biz bir çox qonşularla təmasda olmalıyıq və bu təmaslar var. Bu da böyük coğrafiyanı əhatə edən layihədir və yenə də Gürcüstanla Azərbaycan burada Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır”.



Prezident İlham Əliyev Gürcüstanda nəqliyyat infrastrukturunun genişləndirilməsi layihəsi icra edildiyindən söz açaraq vurğulayıb ki, Azərbaycanda da bu layihələr icra olunur, o cümlədən nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılması layihəsi. Yəni biz bu işləri paralel apararaq təbii ki, həm ölkələrimiz və xalqlarımız, həm də qonşularımız üçün çox əvəzolunmaz xidmətlər göstəririk.

Çıxışının sonunda dövlətimizin başçısı bəyan edib ki, bütün digər sahələrdə də ancaq uğurlarımıza sevinmək olar: “Sizin partiyanızın qələbəsi bütövlükdə Cənubi Qafqazın bundan sonra sabit region olması üçün xüsusi əhəmiyyət daşıyır və biz bu qələbəyə Sizin dostunuz, qardaşınız kimi sevinirik. Sizin hökumətinizə fəaliyyətində yeni uğurlar arzulayırıq”.

Sonra bəyanatla çıxış edən Gürcüstanın Baş naziri İrakli Kobaxidze çox səmimi qonaqpərvərliyə görə Prezidentimizə minnətdarlığını bildirib və “Gürcü Arzusu” partiyasının qələbəsi ilə bağlı təbriklərə görə də təşəkkür edib: “Bu, bizim bölgəmizdə sabitliyin və təhlükəsizliyin təmin edilməsi, ölkələrimizin münasibətləri baxımından əhəmiyyətlidir. Bu, müstəsna əhəmiyyətə malikdir. Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz”.

İqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın keçirilmiş 10-cu iclasından söz açan İrakli Kobaxidze deyib ki,iclas olduqca səmərəli oldu: “Azərbaycanlı həmkarlarıma iclasın yüksək səviyyədə keçirilməsinə görə təşəkkür edirəm. Onu da deyə bilərəm ki, biz əməkdaşlığımızı daha da irəli apara bilərik. Bizim dostluğumuzun, qardaşlığımızın tarixi ənənələri var və bu qardaşlıq məhz bu strateji tərəfdaşlığın təməli üzərinə dayanır.



Mən əminəm ki, bu tərəfdaşlıq gələcəkdə də eyni ruhda inkişaf edəcəkdir. Vacib məqam odur ki, biz hər birimizin strateji və milli maraqlarına hörmətlə yanaşırıq. Biz ölkələrimizin ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəkləyirik. Cənab Prezident, bu dəstəyə görə şəxsən Sizə və Azərbaycana təşəkkür edirəm”.

Azərbaycan Prezidenti ilə təkbətək görüşdə ikitərəfli münasibətlərin müzakirə edildiyini bildirən Gürcüstan Baş naziri regionda cərəyan edən proseslərin bizim ölkələrimizə də təsiri olduğunu söyləyib: “Vacib məqam ondan ibarətdir ki, biz hər bir çağırışla bağlı birlikdə çalışmalıyıq. Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizlik müstəsna əhəmiyyətə malikdir. Bir daha Sizi əmin etmək istəyirəm ki, biz bu sabitliyi təmin etmək üçün maksimum səy göstərməyə hazırıq”.

“Bizim münasibətlərin iqtisadi aspekti də çox vacibdir. Siz artıq müdrik şəkildə bizim ölkələrin strateji tərəfdaşlığını qeyd etdiniz. Bu layihələrin strateji və iqtisadi əhəmiyyəti var. Çox vacibdir ki, belə layihələr davamlı olsun və yeni layihələr müəyyən edilsin. Artıq qeyd etdiyim kimi, Azərbaycan Respublikası bizim üçün təkcə dəyərli dost deyil, Azərbaycan bizim üçün etibarlı tərəfdaş və qardaş ölkədir. Bu bağların dərinləşdirilməsi bizim marağımızdadır və biz bu münasibətlərə böyük əhəmiyyət veririk.

Cənab Prezident, Siz bağlantı layihələrini qeyd etdiniz. Bu, mühüm bir sahədir və bizim ikitərəfli əlaqələrimizin inkişafı baxımından da bu mövzu vacib əhəmiyyət kəsb edir. Bu coğrafi genişlənmədə ölkələrimiz əhəmiyyətli rol oynaya bilər. Biz Asiyanı Avropa ilə birləşdiririk və bu potensialdan maksimal dərəcədə istifadə etməliyik. Odur ki, bu layihələr bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olmuşdur. Hazırda üzərində işlədiyimiz növbəti layihələr var ki, onlar da bizim ölkələrin mənafeyi naminə bu potensialı genişləndirəcək. Bu tərəfdaşlığımızın irəlilədilməsi üçün əlavə səylər göstərməyə hazırıq.

İqtisadi-ticari sahə də çox vacibdir və biz çox məmnunuq ki, Azərbaycan Gürcüstanın beş əsas ticarət tərəfdaşı sırasındadır. Bizim tərəfdaşlığımız daha da dərinləşdirilməlidir” - deyən İrakli Kobaxidze mühüm dəstəyə və tərəfdaşlığa görə azərbaycanlı dostlara və həmkarlara, şəxsən cənab Prezidentə təşəkkürünü bildirib. Gürcüstanın Baş naziri Prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət edib və vurğulayıb ki, bu il həmin şərəfə nail olacaqlarına ümid edir.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.

# Azərbaycan - Gürcüstan: Möhkəm təməl üzərində strateji tərəfdaşlıq münasibətləri

**Son vaxtlarda intensivləşən qarşılıqlı yüksəksəviyyəli səfərlər Azərbaycanla Gürcüstan arasında möhkəm təməl üzərində qurulan strateji tərəfdaşlıq münasibətlərinə güclü impuls verir. Dünən Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycana səfərə gəlib. Bakıda yanvarın 17-də Azərbaycanın Baş naziri Əli Əsədovun və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin sədrliyi ilə iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclası keçirilib. İclasda hökumət başçıları ikitərəfli əməkdaşlığın cari vəziyyətinə diqqət çəkiblər və perspektivlə bağlı fikirlərini bölüşüblər.**

## İki ölkə arasında fəal siyasi dialoq

Yubiley iclasında Baş nazir Əli Əsədov Gürcüstanla əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasət prioritetlərindən biri olduğunu bildirib. Vurğulanıb ki, ötən dövr ərzində Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəlib. Həmçinin iki ölkə arasında fəal siyasi dialoq təqdir edilib, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub. Ərazi bütövlüyü məsələsində qarşılıqlı dəstək xüsusi vurğulanıb.

Xatırladaq ki, 1996-cı il martın 8-də imzalanan “Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə” ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəddir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. İndiyədək ölkələrimiz arasında 125-dən çox sənəd imzalanıb.

## Əsas ticarət tərəfdaşlarından biri

İqtisadi sektor Azərbaycan və Gürcüstanın strateji səviyyəyə yüksələn münasibətlərində mühüm yer tutur. İclasda bildirilib ki, Azərbaycan və Gürcüstan ticarət-iqtisadi əməkdaşlığa ənənəvi olaraq böyük əhəmiyyət verirlər.

Gürcüstanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu qeyd edilib. İnvestisiya sahəsində əməkdaşlığın yaxşı dinamika nümayiş etdirdiyi bildirilərək Azərbaycanın Gürcüstana ən çox sərmayə yatıran ölkə olduğu diqqətə çatdırılıb. Indiyədək Azərbaycandan Gürcüstana 3,6 milyard ABŞ dolları məbləğində investisiya qoyulub. İki ölkə arasında ticarət dövriyyəsi 2024-cü ildə bir milyard dolları ötüb. İclasda qarşılıqlı investisiyaların həcminin artırılması ilə bağlı gündəlikdə duran məsələlər nəzərdən keçirilib.

## Neft-qaz sahəsində əməkdaşlıq

İki dost ölkə tərəfdaş dövlətlərlə birlikdə enerji sektorunda irimiqyaslı layihələrin reallaşdırlmasında yaxşı təcrübə qazanıblar. İclasda neft-qaz sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb. SOCAR tərəfindən Gürcüstanda həyata keçirilən layihələr barədə söhbət açılıb, gündəlikdə duran yeni perspektivli layihələrə toxunulub.

Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi meqalayihələr uğurlu regional əməkdaşlıq nümunəsi kimi dəyərləndirilib. Bu layihələrin Cənubi Qafqazın transformasiyasına xidmət etdiyi, bölgənin enerji xəritəsini dəyişdiyi diqqətə çatdırılıb. Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasında iki ölkənin önəmli rolu qeyd olunub. Eyni zamanda, Azərbaycan və Gürcüstanın iştirakı ilə Avropaya yaşıl enerji körpüsünün salınmağa başlanılmasından məmnunluq ifadə edilib.

## Nəqliyyat-tranzit sahəsi ikitərəfli əməkdaşlığın ən vacib istiqamətlərindən biri kimi

Yubiley iclasında nəqliyyat-tranzit sahəsi ikitərəfli əməkdaşlığın ən vacib istiqamətlərindən biri kimi dəyərləndirilib. Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işə salınması üçün birgə səylərin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Azərbaycanın əlavə sərmayəsi və Gürcüstan tərəfinin səyləri nəticəsində bu yolun yükaşırma qabiliyyəti 1 milyon tondan 5 milyon tonadək artırılıb.

Orta Dəhlizin mühüm halqası olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal işin aparıldığı bildirilib.

Kənd təsərrüfatının müxtəlif istiqamətlərində, o cümlədən kənd təsərrüfatı və emalı məhsulları üzrə qarşılıqlı ticarət, bitki mühafizəsi, baytarlıq və digər sahələrdə uğurlu əməkdaşlıqdan və təcrübə mübadiləsindən məmnunluq ifadə olunub.



## Mədəni-humanitar sahədə əməkdaşlıq

Mədəni-humanitar sahədə əməkdaşlığın uğurlu nəticələri təqdir edilib. 2023-cü ildə Gürcüstanda baş nazirlərin iştirakı ilə Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Dram Teatrının yeni binasının təməlqoyma mərasiminin keçirilməsinin əhəmiyyətinə toxunulub.

Mədəni-humanitar mübadilənin və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsində qarşılıqlı maraq ifadə olunub.

## İmzalanan birgə sənədlər

İclasın yekununda Baş nazirlər Əli Əsədov və İrakli Kobaxidze Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclasının Protokolunu imzalayıblar.

Həmçinin Azərbaycanın və Gürcüstanın Xarici İşlər nazirlikləri arasında konsulluq sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu, Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi arasında dəniz nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi arasında Niyyət Protokolu imzalanıb.

***Mübariz FEYİZLİ***

# Tariximizin kədər və ləyaqət səhifəsi

## 20 Yanvar faciəsindən 35 il ötür

**Bu gün müstəqil Azərbaycan dünyaya bir günəş kimi parlayır. Uğurlarımızın sayı çoxdur. Xüsusilə də son 200 illik tariximizdə qazandığımız ən böyük qələbələrimiz sayəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi dünyanın müxtəlif ölkələrində yaşasalar da, qəlbləri ana Vətənlə döyünən soydaşlarımız üçün sonsuz qürur mənbəyidir.**
**Ancaq müstəqilliyə, öz taleyimizin sahibi olmağa, Vətən torpaqlarının bütövlüyünə gedən yolumuz asan olmayıb. Bu yolda faciələrlə üzləşmişik, şəhidlər vermişik. Həmin faciələrdən birini də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədə yaşamışıq. 20 Yanvar faciəsindən bizi 35 il ayırır.**

## Xüsusi amansızlıqla həyata keçirilən "Bakı əməliyyatı"

"Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə müvafiq fərman imzalandığı andan bu barədə əhaliyə rəsmi xəbərdarlıq edilməlidir. Lakin Bakıda fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. Dinc insanlara qarşı xüsusi amansızlıqla həyata keçirilən "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirirdilər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə verdi.

Bakı ilə paralel şəkildə,respublikanın bölgələrində də qırğınlar törədildi. Ümumilikdə Bakıda və respublikanın rayonlarında 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Bu, dinc insanlara qarşı törədilən qanlı bir cinayət idi.

## Xalqının sadiq oğlu Heydər Əliyevin Moskvadan dünyaya çağırışı

Həmin dövrdə faciə yaşayan Azərbaycan tək qalmışdı. Keçmiş ittifaq rəhbərliyi yerli kosmopolit məmurlarla birlikdə respublikamızın ətrafında, sözün əsil mənasında, informasiya çəpəri çəkmişdi. Belə ağır məqamdə o dövrdə keçmiş ittifaqdakı bütün vəzifələrindən uzaqlaşdırılsa da, Moskvada yaşayan Heydər Əliyev bir milli mücadilə nümunəsi ortaya qoydu. O, faciənin ertəsi günü hədə-qorxulara, təhdidlərə məhəl qoymayaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi və Bakıda baş verənlərlə bağlı informasiya blokadasını yardı, bütün dünyaya bir sıra mesajlarını çatdırdı. Doğma xalqı ilə bir yerdə olduğunu bildirən Heydər Əliyev Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya yabançı, humanizmə və respublikada elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd addım kimi dəyərləndirdi və günahkarların cəzalandırılmasını istədi.


Sputnik

## 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi

Müstəqilliyimizin ilk illərində Azərbaycanın siyasi hakimiyyətində müxtəlif qüvvələr təmsil olunsalar da, onların heç biri 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermədi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə insanları meydanlara səsləyən "liderlər"in bir çoxu 1992-ci ilin yazında respublikada qeyri-qanuni yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarında təmsil olunurdular. Təəccüblüdür ki, onlar da 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi təşəbbüsü ilə çıxış etmədilər.

Yalnız Heydər Əliyevin səyləri sayəsində 20 Yanvar faciəsi özünün hüquqi-siyasi qiymətini aldı. Onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi. Bununla bağlı Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı Heydər Əliyev bildirdi ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədə ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilib. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan sonra 20 Yanvar faciəsi ilə bağlı mühüm sənədlər imzaladı. O cümlədən sabiq Prezident Heydər Əliyev 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı Fərman imzaladı. Fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırdı. Heydər Əliyevin bu istiqamətdə gərgin əməyinin nəticəsi kimi, 1994-cü il mart ayının 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə siyasi-hüquqi qiymət verilmiş oldu.

*Mübariz ABDULLAYEV*

# Kərki necə işğal edildi?

1990-ci il yanvarın 19-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğaldan sonra kəndin əhalisi məcburi köçkün vəziyyətinə düşüb. Hücum zamanı kəndin əhalisi Şurut dərəsi vasitəsilə Sədərək kəndinə doğru çəkilmişdilər. Növbəti gün erməni silahlı dəstələri Kərki kəndinə hücum edərək evləri yandırmış, kəndi tamamilə xarabalığa çevirmişdilər.

Məlumat üçün bildirək ki, qədim və zəngin tarixə irsə malik Kərki Azərbaycanın 4 anklav ərazisindən biridir. Kənd Ermənistan ərazisi ilə tam əhatə olunur və ümumi ərazisi təxminən 960 hektardır.

**Kəndin işğalına aparan yol**

1988-ci ildə erməni millətçilərinin təşəbbüsü ilə başlayan Qarabağ münaqişəsi Kərki kəndinə də öz təsirini göstərib. 1988-1990 - ci illərdə erməni silahlı dəstələri zaman-zaman Kərki kəndinə hücumlar edib və kəndi işğal etməyə cəhd etmişdilər. 1989-cu ilin dekabrın 14-də erməni silahlıları Naxçıvanın Kərki, Sədərək, Günnüt və Havuş kəndlərini güclü atəşə tutmuşdular. 1990-cı il yanvarın 15-dən isə hücumlar daha intensiv hal almışdı.

İşğal məsələsinə toxunmamışdan



əvvəl, Kərki kəndinin işğalına aparan başlıca amillərə nəzər yetirək:

1929-cI ilin 18 fevralında Zaqafqaziya SFSR MİK Rəyasət heyətinin əsassız qərarına əsasən Naxçıvan MSSR ərazisindən 65 700 ha torpaq sahəsi Ermənistana verilmiş və həmin qərara əsasən Naxçıvanın Kərçihan, Qurdqulaq, Goradiz, Ağbin, Ağxəç, Almalı, Sultanbəy, İtqıran və Kilit kəndinin bir hissəsi Ermənistan SSRİ-nin nəzarətinə keçmişdi.

Belə bir taleni Kərki kəndi də yaşamalı olur. Azərbaycan SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 5 may 1938-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin ətrafındakı torpaqların xeyli hissəsi Ermənistana verilir. Beləliklə, kənd Naxçıvanla bütün quru əlaqələri kəsilir və tam təcrid olunur.

1930-cu illərdə Azərbaycan SSRİ rəhbərliyinin bağışlanmaz səhvi 1990-ci ildə Kərkinin erməni silahlı dəstələri tərəfindən işğal olunmasına və kərkililərin öz doğma yurdlarını məcburi tərk etməsinə gətirib çıxarır.

**Kənd necə işğal olundu?**

1989-cu ilin sonlarında Kərki kəndi tamamilə blokada halına düşür. Kəndin əhalisi ərzaq, yanacaq və digər zəruri ehtiyaclardan məhrum olur. 1990- ci ilin yanvarında kənd ərazisində Azərbaycan və Ermənistan silahlı dəstələri arasında döyüşlər geniş vüsət alır. Yanvarın 18-də kərkililərin güclü müqavimətinə baxmayaraq, kənd SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun dəstəyi ilə erməni silahlıları tərəfindən işğal olunur.

Hadisələrin canlı şahidlərinin sözlərinə görə, həmin gün kənd səhər saat 4 radələrindən axşamadək şiddətli atəşə tutulub. 30 nəfərədək Kərki sakini Şərur Rayon Polis Şöbəsinin 3 əməkdaşı ilə birlikdə 2 mindən çox silahlı erməniyə qarşı vuruşsa da, döyüş sursatlarının bitməsi səbəbi ilə onlar yaşayış yerini tərk etməli olublar.

**Zaman gələcək...**

Prezident İlham Əliyevin qətiyyəti və şücaəti, şanlı ordumuzun qəhrəmanlığı hesabına bu gün tarixi torpağımız Qarabağ azaddır. Qarabağ yenidən qurulur və bu torpaqlarda həyat yenidən dirçəlir. Çox qürurverci haldır ki, qarabağlılar öz doğma torpaqlarına qayıdır və yeni həyat qururlar.

Gün gələcək kərkililər öz doğma torpaqlarına qayıdacaqlar. Dövlətimiz bu istiqamətdə qətiyyətli addımlar atmağa hazırdır.

*Yunis Abdullayev*

# 20 Yanvar - xalqımızın azadlıq mübarizəsinin rəmzi



20 Yanvar Azərbaycan xalqının məruz qaldığı ən dəhşətli faciələrdən birini əks etdirən tarixdir. Bu, həm də xalqımızın azadlıq mübarizəsi tarixinə qızıl hərflərlə yazılmış şanlı qəhrəmanlıq səhifəsidir. Məlumdur ki, keçmiş SSRİ-nin çöküş ərəfəsində xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsi Azərbaycanın azadlıq mübarizəsinə vurulmağa cəhd edilən zərbə idi. Və SSRİ rəhbərliyinin xalqımıza, onun azadlıq mübarizəsinə qarşı həyata keçirdiyi bu qanlı əməliyyat Sovet imperiyasının siyasətinin gerçək mahiyyətini əks etdirən növbəti arqument oldu. Bu fakt, eyni zamanda, keçmiş SSRİ-nin Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasəti dəstəkləməsinə növbəti dəfə dəlalət edirdi.

35 il əvvəl törədilmiş bu qətliam, sözün əsl mənasında, öz hüquqları və azadlığı uğrunda ayağa qalxan xalqın inam və iradəsini sıradan çıxarmaq, həmçinin Sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş qanlı cinayət idi. O da qeyd olunmalıdır ki, Sovet ordusunun cinayətləri təkcə həmin gecə ilə məhdudlaşmadı və hələ bir müddət müxtəlif yerlərdə dəhşətli qətliamlar davam etdirildi. Bu faciənin miqyasının geniş olması üçün SSRİ rəhbərliyi öncədən müəyyən addımlar atmışdı. Belə ki, təxribat planına uyğun olaraq əvvəlcədən televiziyanın enerji bloku partladıldığından radio və televiziya verilişlərinin yayımı dayandırılmışdı, eyni zamanda, qəzetlər də nəşr olunmurdu. Mərkəzi mətbuat və televiziya kanalları isə hadisəni təhrif edən yalan məlumatlar yaymaqda idi. Nəticədə görünməmiş zorakılıqla üzləşən, qanı küçələrə axıdılan insanlar informasiyasız və köməksiz durumda acınacaqlı vəziyyətdə qalmışdılar.

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı 2 milyona yaxın insanın iştirakı ilə yanvarın 22-də paytaxtın Azadlıq meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Bütün bu hadisələr fonunda Azərbaycanın müstəqilliyi ideyası ümummilli amala çevrildi. Bu amal uğrunda xalqımızın müstəqillik uğrunda mübarizəsi daha geniş vüsət alaraq məntiqi sonluğuna çatdı.

Ümumiyyətlə, 20 Yanvar hadisəsi Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda Sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Baş vermiş hadisələr dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu. Belə ki, dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar. Bu təşkilatlanma prosesi zamanı qanlı yanvarla bağlı həqiqətlər müxtəlif ölkələrin ictimaiyyətinə çatdırıldı, həmçinin soydaşlarımızın müstəqillik ideyaları ətrafında daha sıx birləşməsini şərtləndirdi. Belə ki, çox keçmədən xalqımızın müstəqillik ideyası ətrafında sıx birləşməsi Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə nəticələndi.

Xüsusi vurğulanmalıdır ki, 20 Yanvar qətliamının törədilməsindən bir gün sonra o vaxt Moskvada yaşayan ulu öndər Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirdi. Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu cinayətə qarşı etiraz səsini ucaltdı, bəyanatla çıxış edərək baş verən hadisəni hüquqazidd, demokratiyaya yad və humanizm prinsiplərinin əleyhinə olan əməl kimi qiymətləndirdi. Bu cəsur hərəkəti ilə ulu öndər Heydər Əliyev ən çətin anda təkcə xalqının yanında olmadı, eyni zamanda, informasiya blokadasının yarılmasında, Azərbaycanda baş verən qanlı hadisələrin dünyaya çatdırılmasında müstəsna rol oynadı.

1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra isə məhz ümummilli lider Heydər Əliyev bu məsələyə xüsusi həssaslıqla yanaşaraq hadisəyə siyasi-hüquqi qiymət verilməsi, cinayətkarların aşkarlanması istiqamətində yorulmaz fəaliyyət göstərdi. Ulu Öndərimizin təşəbbüsü ilə Azərbaycan parlamentində 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi. Ulu öndərimiz Heydər Əliyevin xalqımızın müstəqilliyi uğrunda mübarizə aparan insanların xatirəsinə ehtiramı, bu istiqamətdə həyata keçirilən diqqət və qayğı siyasəti bu gün də yüksək səviyyədə davam etdirilir. Belə ki, Azərbaycan xalqına qarşı törədilən müxtəlif xarakterli cinayətlərdən, xüsusən də son onilliklərdə yaşanan faciələrdən zərər çəkənlərə qayğı göstərilməsi Prezident İlham Əliyevin də diqqət mərkəzindədir. Bu baxımdan, 20 Yanvar faciəsinin qurbanları da istisna deyil. Dövlət başçısı tərəfindən 20 Yanvar şəhidlərinin ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı addımlar atılır.

Beləliklə, 20 Yanvar faciəsi Ümumxalq Hüzn Günü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf yolunda addımlayan, Prezident İlham Əliyevin rəhbərliyi ilə zirvələri fəth edən, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş müasir müstəqil Azərbaycan dövləti hazırda dünyanın ən nüfuzlu ölkələri sırasındadır. Hər bir vətəndaş öz güclü dövləti ilə fəxr edir, müstəqilliyimiz uğrunda canlarını qurban vermiş şəhidlərimizin ruhu isə şaddır!



*Millət vəkili*
*Samir Vəliyev*

# Sərhədlərin delimitasiyasında yeni mərhələ...

## İkitərəfli təmaslar müvafiq komissiyalar arasında razılaşmaları şərtləndirir

**Bəlli olduğu kimi, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə müvafiq komissiyaların 11-ci görüşü keçirilib. Görüşlə bağlı məlumatda bildirilib ki, tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib və dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycanın Ermənistanın və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan və Ermənistan İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılığa gəliblər. Eyni zamanda, delimitasiya işlərinin görülməsi qaydası üzrə müvafiq təlimatların layihələri müzakirə edilib. Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.**

### Bir ildir davam edən proses...

2023-cü ilin payızından etibarən iki dövlətin müvafiq delimitasiya komissiyaları arasında baş tutan görüşlər, aparılan müzakirələr və əldə edilən razılaşmalar bir faktı önə çıxarıb - üçüncü tərəfin iştirakı olmadan Azərbaycan və Ermənistanın öz aralarında vacib məsələlərlə bağlı razılıq əldə etmək imkanındadırlar. Bu kimi görüşlər növbəti mərhələlərdə görüləcək işlərlə bağlı yeni perspektivlər formalaşdırır. Bu isə öz növbəsində sülhü daha da yaxınlaşdırır - dövlət sərhədlərinin müəyyənləşməsi, delimitasiya və demarkasiyanın həyata keçirilməsi qarşıdakı dövrdə münasibətlərin normallaşması üçün də stimul yaradır. Xüsusilə, hazırki sülhlə bağlı açıq mətnli fikirlərin səsləndirildiyi, bəndlərin mütləq əksəriyyəti bağlı razhılıq əldə olunduğu bir dövrdə son proseslər mövqelərin yaxınlaşmasına yol aça bilər. Nümunə ortadadır - məhz ikitərəfli təmaslar nəticəsində iki ölkənin müvafiq dövlət strukturları arasında birgə açıqlama yayılıb, ötən ilin aprelində dövlət sərhəddinin müəyyən hissəsinin delimitasiya və demarkasiyası ilə bağlı razılaşma əldə olunab və icra edilib, nəhayət komissiyaların birgə fəaliyyəti haqqında" Əsasnamə qəbul olunub. Yeni dövrdə prosesin daha da inkişaf etdirilməsi olduqca əsaslı nəticələr verə bilər.



### İkitərəfli təmasın müsbət nəticələri...

Vurğulayaq ki, Azərbaycan hər zaman sülhün və beynəlxalq hüququn tərəfdarı kim çıxış edib - hətta 30 illik işğal dövründə belə ölkəmiz sülhpərvər mövqedən geri çəkilməyib. İndiki halda, bu istiqamətdə addımların davam etdirilməsi son sənədin ortaya çıxması işində də özünü göstərir. Yəni, Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan proseslər münasibtlərin yaxınlaşmasını şərtləndirir. Birmənalı şəkildə qeyd olunmalıdır ki, uğurlu nəticəyə imza atılması yenə də Azərbaycanın adı ilə bağlıdır - illərdir ki, ikitərəfli təmasların yarada biləcək üstünlüklərini önə çəkən dövlətimiz nəhayət ki, Ermənistanın da vasitəçisiz olaraq danışıqlar aparmasına nail oldu. İndiki mərhələdə isə Ermənistanın atacağı addımlar sülhün daha da tezləşdirilməsinə yol aça bilər - bunun üçün ən əsas şərt rəsmi İrəvanın özünün Konstitusiyasında dəyişiklik etməsi, Azərbaycana qarşı olan əsassız torpaq iddialarından əl çəkməsi və sülhün, sabitliyin davamlı, əbədi olmasına töhşfə verməsidir. Ortadakı razılaşma isə yeni dövr üçün mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Ermənistanın dövlət sərhədlərinin müəyyənləşidirilməsi ilə bağlı prosesin inkişafına tərəfdar olduğunu bildirməsi, özlüyündə regional sabitlik üçün müəyyən təkandır. Yaxın gələcək üçün proqnozlaşdırılan hadisələrin inkişafı geostrateji baxımdan Cənubi Qafqazda sabitliyin təminini zəruri edir - həm iqtisadi yönümlü layihələrin reallaşması, həm də siyasi trafiklərin fonunda bölgə ilə bağlı reallıqların daha da irəliyə aparılması üçün bu razılaşma olduqca vacib təsir bağışlayır.

Vurğulandığı kimi, bu razılaşma onu göstərir ki, sərhədlərin delimitasiyası prosesi ümumi sülh gündəliyinin bir hissəsi olmaqla yanaşı, həm də müstəqil inkişaf xəttinə malikdir. Başqa sözlə, sülh sənədinin qarşılıqlı mübadiləsi, razılaşmalar delimitasiya prosesi ilə bağlı görüşlərin ruhuna kəskin təsir etmir. Tam əksinə, əldə edilən razılaşmalar, delimitasiya üzərindən ortaq nöqtələrin tapılması da ümumilikdə prosesin sürətini artırır. Əsas meyar isə odur ki, uzun illərdən sonra Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması artıq mühüm bir çağırışa çevrilib. Azərbaycanın 2020-ci il Vətən müharibəsində və 2023-cü il antiterror tədbirlərində əldə etdiyi qələbə bölgədə yeni siyasi mənzərə formalaşdırıb - Ermənistan anlamalıdır ki, regional təhdidə çevrilməklə heç nə əldə etməyəcək. Əksinə, Azərbaycanın sülh çağırışlarına adekvat cavab vermək regional inkişafın bir hissəsinə çevrilmək, bu inkişafdan yararlanmaq perspetkivi formalaşdırır. Bunun üçün də İrəvan mənfi tendensiyaları, xüsusilə "sülhdənqaçmanı" və silahlanmanı bir kənara qoymalı, səmimi şəkildə Azərbaycanın irəli sürdüyü tələbləri yerinə yetirməlidir.

### İrəvan anlamalıdır ki...

*P.İSMAYILOV*

# Gözlənilən məhkəmə başladı...

## Təqsirləndirilən şəxslər ədalət mühakiməsinə çıxarıldı

Dünən müxtəlif hərbi cinayətlərdə ittiham olunan ermənilərin məhkəməsi başlayıb. Ermənistanın və onun aləti olan, birbaşa Ermənistan dövləti tərəfindən idarə olunan, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yaradılmış "Dağlıq Qarabağ Respublikası"nın qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işinə Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə baxılıb. Qeyd edək ki, təqsirləndiriln şəxslərlə bağlı Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırım, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində cinayət işinin istintaqı aparılıb. Toplanmış sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Respublikası Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunub, prokurorun təqdimatı əsasında məhkəmə qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.




Həm ibtidai istintaqın gedişində, həm də ibtidai istintaq tamamlandıqdan sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib, iş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib, onlar cinayət işinin bütün materialları ilə tanış edilib.

Dünən, həmçinin, Ruben Vardanyan barəsində cinayət işi üzrə məhkəmə başlayıb. Təqsirləndirilən şəxsə qarşı terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, Azərbaycan Respublikası və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində cinayət işinin istintaqı aparılıb. Müxtəlif vəzifələrdə çalışmış Vardanyan Ruben Karlenoviçə Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və qanunsuz silahlı birləşmələri əhatə edən cinayətkar birlikdə, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılmasında və fəaliyyətinin təşkilində iştirak edərək Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulan əməllərin törədilməsi ilə bağlı yekun ittiham elan olunub. İbtidai istintaqın başa çatması barədə təqsirləndirilən şəxs Ruben Vardanyana və cinayət prosesinin digər iştirakçılarına məlumat verilib, onlar cinayət işi üzrə maddi sübutlar, sənədlər, ekspertiza rəyləri və digər sübutlar da daxil olmaqla, cinayət işinin bütün materialları ilə tanış edilib.

Qeyd edək ki, adıçəkilən təqsirləndirilən şəxslərin məhkəməsində dövlət ittihamını 6 prokuror müdafiə edib.

*SADİQ*

# "Türk Dünyasına Baxış 2040"...

## TDT ölkələri Orta Dəhlizdə rəqəmsal gömrük və asan ticarət rejimi yaradır

Azərbaycanın strateji-coğrafi mövqeyi ölkəmizi regionun vacib tranzit və logistika mərkəzlərindən birinə çevirib. Respublikamız Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tərkib hissəsi olan Orta Dəhlizdə və Şimal-Cənub beynəlxalq nəqliyyat koridorunda öz tranzit potensiallarını dayanmadan artırır. Şərq və Qərb coğrafiyalarındakı mövcud nəqliyyat və logistika infrastrukturlarının əlaqələndirilməsi prosesləri isə Türk Dövlətləri Təşkilatına üzv (TDT) ölkələrinin iqtisadi inteqrasiyasının genişlənməsində mühüm rol oynamaqdadır. Bu barədə Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov yanvarın 16-da Bakıda keçirilən TDT Gömrük Xidməti Rəhbərlərinin X iclasında bildirib.

İclasda TDT ölkələri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması, "Transxəzər Gömrük Tranzit Portalı"nın fəaliyyəti, Elektron imza və müasir izləmə texnologiyalarının tətbiqi və digər istiqamətlərdə müzakirələr aparılıb. TDT-nin baş katibi Kubaniçbek Omuraliyev bildirib ki, qlobal çağırışlar fonunda sərhədlərarası ticarətdə çətinliklər müşahidə olunmaqdadır. Nəqliyyat və logistika xərcləri, uzun məsafələr, sənədlərin yoxlama müddətləri, gömrük və tranzit prosedurları son nəticədə tranzit daşınmalarındakı intensivliyə təsir göstərir. Ona görə də, türk dövlətləri müəyyən etdikləri "Türk Dünyasına Baxış 2040" strateji sənədinə uyğun olaraq, Orta Dəhliz boyunca gömrük və ticarət proseslərini asanlaşdırmağı hədəfləyib. Həmin hədəflər çərçivəsində Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması və "Bir pəncərə" prinsipinin tətbiqi başlıca yer tutur. Həmçinin vahid gömrük informasiya sisteminin yaradılması, ortaq risklərin idarə edilməsi mexanizmlərinin formalaşdırılması, elektron ticarət sahəsində innovativ texnologiyaların və vahid bəyannamə sisteminin tətbiqi əsas prioritetlərdəndir.

**"Qarabağ Bəyannaməsi"nin hədəflərindən biri**

Qeyd edək ki, türk dövlətləri sadələşdirilmiş gömrük rejiminin yaradılması barədə 2022-ci il noyabrın 11-də Səmərqənddə keçirilən Zirvə Görüşündə razılığa gəlib. TDT ölkələri tərəfindən imzalanan "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişdən irəli gələn hüquqi çərçivə ötən 2 il ərzində müvafiq orqanlar arasında hazırlandıqdan sonra 2024-cü il noyabrın 29-da qüvvəyə minib. Sənədə əsasən, türk dövlətlərinin apardığı ticarət əməliyyatları zamanı gömrük prosedurları asanlaşacaq və daşınma-logistika rejiminin yumşaldılması, sərhədkeçmə prosedurlarının asanlaşdırılması, qarşılıqlı ticarətin elektronlaşdırılması üzrə rəqəmsal məlumat mübadiləsinin təmin edilməsi nəzərdə tutulub.

Yeni təsisatın yaradılması türk dövlətlərinin 2024-cü ilin iyul ayında Şuşa şəhərində imzaladığı "Qarabağ Bəyannaməsi"ndə əks edilmiş iqtisadi-ticari hədəflərdən biridir. Bəyannamənin əsas prinsiplərindən biri TDT-nin kollektiv ticarət alyansının yaradılması və bu məqsədlə gömrük rejimlərində asan preferensial (qarşılıqlı güzəşt) qaydaların tətbiqi ilə bağlıdır. Preferensial sazişlərin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, iqtisadi əlaqələrin və ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasını nəzərdə tutur. Bu baxımdan tərəflər arasında mərhələli şəkildə idxal və ixrac olunan bir sıra məhsullarının idxalına tətbiq edilən gömrük rüsumlarını qarşılıqlı olaraq azaldılması istisna deyil.

**Türk dövlətləri arasında ticarət dövriyyəsi artacaq**




Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması türk dövlətləri arasında əmtəə dövriyyəsinin də artmasına səbəb olacaq. Hazırda bu dövlətlərin apardığı qarşılıqlı xarici ticarət dövriyyəsinin həcmi təxminən 45-48 milyard dollar təşkil edir. Bu, onların ümumi ticarət dövriyyəsinin 5 faizi deməkdir. Ancaq potensial bundan ən azı 10 dəfə böyükdür. Ona görə də türk dövlətləri öz iqtisadi güc və potensiallarını vahid zəncirdə birləşdirməklə regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında rolunu artımaq niyyətindədir. Mövcud axıcı nəqliyyat infrastrukturlarının daha da müasirləşdirilməsi və beynəlxalq trans-regional dəhlizlərə inteqrasiyaların genişləndirilməsi bu hədəflərin reallaşmasına imkan verməklə, TDT-nin qlobal ticari coğrafiyalarda üstün mövqeyini möhkəmləndirəcək.

**Azad Ticarət Rejiminin yaradılması**

TDT-nin əsas hədəflərindən biri də rəqəmsal azad ticarət rejiminin təmin olunmasıdır. Bu, üzv ölkələr arasında qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması istiqamətində vahid siyasətin yürüdülməsini nəzərdə tutur. Ticarətdə elektron mübadilənin yeni mexanizmlərindən biri kimi Türkiyədə qüvvədə olan Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi (DEPA) təcrübəsinin bütün üzv ölkələrdə geniş tətbiqi nəzərdə tutlur ki, bu da iqtisadi-ticarət əlaqələrin təşviqi və mal mübadiləsinin həcmlərinin artırılmasına xidmət edir. DEPA sazişi qardaş ölkələr arasında qarşılıqlı ticarətin və xarici investisiyaların həcminin artırılması, birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığın daha da güclənməsi, eləcə də biznes qurumları arasında işgüzar münasibətlərin genişlənməsi üçün hüquqi əsaslar yaradır.

Qeyd edək ki, iclasda TDT-nin Gömrük Xidməti rəhbərləri tərəfindən Məlumat Mübadiləsinin sənədinin texniki şərtləri, Beynəlxalq Yük Daşınmaları (BYD) Konvensiyasına uyğun olaraq "e-BYD" prosedurunun tətbiqi üzrə Fəaliyyət Planı sənədləri imzalanıb. Bu sənədlər TDT ölkələri arasında ticarətin mübadiləsinin asanlaşdırmaqla yanaşı, əməkdaşlıq etdiyi digər region dövlətləri ilə qarşılıqlı logistika potensiallarının artmasına səbəb olacaq.

*ELBRUS CƏFƏRLİ*

# Yeni reallıqlar, növbəti hədəflər...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Qaradağ rayonu, Müşfiqabad bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qaradağ rayon təşkilatı sədrinin müavini Faiq Qurbanov əvvəlcə Yeni Azərbaycan Partiyasının seçki proqramı haqqında ətraflı məlumat verib.



Onun sözlərinə görə, proqramda sonuncu bələdiyyə seçkilərindən ötən dövr ərzində qazanılan uğurlarla yanaşı, mühüm hədəflərdən irəli gələn vəzifələr də öz əksini tapıb. F.Qurbanov əlavə edib ki, YAP aparıcı siyasi qüvvə kimi bütün imkanlarını səfərbər edərək ölkəmizin qazandığı davamlı uğurlara öz layiqli töhfəsini verib.

Bələdiyyə üzvlüyünə namizədlər Ayxan Əliyev, İmamverdi Fəxrəddinov, İsmayıl Xəlilzadə, Tərlan Məmmədov, Fazil Orucov və Hacıyev Həsənağa ölkəmizdə növbəti bələdiyyə seçkilərinin



yeni reallıqlar fonunda keçirildiyini ifadə edərək seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər Mətanət Cəfərova, Tural Məmmədov, Azər Ağakişiyev və digərləri bələdiyyə seçkilərində daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədlərini dəstəkləyəcəklərini bildiriblər: "Qaradağlıların seçimi YAP namizədləridir", - deyə vurğulanıb.

# Ümumxalq partiyası bundan sonra da ölkəmizin inkişafına xidmət edəcək



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nərimanov rayonu, Nərimanov bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə növbəti görüşü keçirilib.

YAP Nərimanov rayon təşkilatı sədrinin müavini Anar Abbasov bildirib ki, Yeni Azərbaycan Partiyası



müasir müstəqil Azərbaycanın siyasi sistemini formalaşdırıb, siyasi mədəniyyətin təşəkkülünü təmin edib: "Yeni Azərbaycan Partiyası xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarına əsaslanaraq fəaliyyətini müvəffəqiyyətlə davam etdirir. Cəmiyyətin bütün təbəqələrindən olan insanları sıralarında birləşdirən YAP yarandığı vaxtdan etibarən ölkədə keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb. Heç şübhəsiz, növbəti bələdiyyə seçkiləri də partiyamızın daha bir uğur səhifəsi olacaq. Ümumxalq partiyası bundan sonra da



ölkəmizin inkişafına xidmət edəcək".

Bələdiyyə üzvlüyünə namizədlər İradə Qarayeva, Vüsal Cəfərli, Əliyar Həsənov və Kənan Mahmudov YAP-ın öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafında, ölkənin etibarlı gələcəyinin təmin olunmasında mühüm rol oynadığını diqqətə çatdırıblar. Natiqlər YAP-ın seçki platforması barədə ətraflı məlumat verib, yeni dövrdə qarşıya qoyulan hədəflərə nail olmaq üçün seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

# YAP xalqın sonsuz güvənini qazanmış lider partiyadır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Gəncə şəhəri, Nizami və Kəpəz bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə bələdiyyələrin bu günə qədər keçdiyi inkişaf yolundan bəhs edərək yerli özünüidarəetmənin təkmilləşdirilməsi istiqamətində atılan addımları vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının respublikada keçirilən bütün seçkilərdə əldə etdiyi parlaq qələbələrin partiyanın xalqın güvənini və dəstəyini qazanmasının göstəricisi olduğunu qeyd edib.



Milli Məclisin deputatı Müşfiq Cəfərov ölkəmizdə bütün sahələrdə aparılan islahatlardan, o cümlədən bələdiyyələrin fəaliyyətinin effektivliyinin artırılması üçün görülən işlərdən danışıb. O bildirib ki, genişmiqyaslı



islahatlar nəticəsində ölkəmizdə idarəetmə sistemi təkmilləşib və bələdiyyələrin səmərəli fəaliyyət imkanları genişlənib.

Seçki qərargahının üzvləri Mehman Rzayev və Nizami Əhmədov Yeni Azərbaycan Partiyasının seçki platforması və qarşıda duran hədəflər barədə geniş məlumat veriblər. Natiqlər ölkədə keçirilən hər bir seçkidə olduğu kimi, qarşıdan gələn bələdiyyə seçkilərində də YAP-ın qələbə qazanacağına inamlarını ifadə ediblər.

# Yeni Azərbaycan Partiyası mütərəqqi ideyaları gerçəkləşdirən yenilikçi siyasi qüvvədir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Babək rayonu, Cəhri bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Babək rayon təşkilatı sədrinin müavini Elvin Əliyev bildirib ki, Yeni Azərbaycan Partiyası mütərəqqi ideyaları gerçəkləşdirən aparıcı və yenilikçi siyasi qüvvədir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası islahatlar vasitəsilə inkişafı təmin edir.

Təşviqat qrupunun üzvü Gülzar Rüstəmova, bələdiyyə üzvlüyünə namizədlər Sənan Novruzov, Oruc Səfərov, Bəxtiyar Əhmədov, Şəfayəddin



Qəmbərov, Ayşən Tahirova, Elman Bayramov, Əli Quliyev, Mahirə Şahverdiyeva və Taleh İmanov bələdiyyə seçkilərinin əhəmiyyətini diqqətə çatdırıblar. Onlar YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri partiyanın namizədlərini dəstəkləməyə çağırıblar.

# Möhtəşəm uğurlar parlaq gələcəyin möhkəm təməlidir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qobustan rayonu, Sündü bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov bildirib ki, Azərbaycan dünyada güclü və nüfuzlu dövlət kimi tanınır. Onun sözlərinə görə, möhtəşəm uğurlar parlaq gələcəyin möhkəm təməlidir.

Ötən dövr ərzində Yeni Azərbaycan



Partiyasının nüfuzunun daha da artdığını söyləyən Q.Qasımov bildirib ki, partiya qarşıda duran milli hədəflərə çatmaq istiqamətində üzərinə düşən vəzifələri uğurla yerinə yetirməkdədir. O qeyd edib ki, qalib xalqın lider partiyası öz yolunda inamla və əmin addımlarla irəliləyir. "Qarşıdan gələn bələdiyyə seçkiləri də Yeni Azərbaycan Partiyasına xalqın sarsılmaz inamının daha bir təsdiqi olacaqdır", - deyə vurğulanıb.

Görüşdə çıxış edən seçki qərargahının



üzvü Allahyar Atakişiyev, bələdiyyə üzvlüyünə namizədlər Rasim Novruzov, Hicranə Qaçayeva və Fərman Əliyev hüquqi və demokratik dövlət olan Azərbaycanda bələdiyyələrin inkişafının önəminə diqqəti cəlb ediblər. Onlar bu sahədə sistemli tədbirlərin davam etdirilməsi və mühüm nəticələrin əldə olunması üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# "Bütün sahələrdə yüksəlişə nail olmuşuq"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Lənkəran rayonu, Liman və Girdəni bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Lənkəran rayon təşkilatı sədrinin müavini Əlövsət Qurbanov bildirib ki, Prezident İlham



Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif istiqamətləri əhatə edən layihələr uğurla reallaşdırılıb, cəmiyyət həyatının bütün sahələrində yüksəlişə nail olunub: "İslahat xarakterli tədbirlər, eyni zamanda, yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib".

Seçki qərargahının üzvləri Şirvan Əliyev, Ədalət Nəzərov, Siyavuş Süleymanlı, təşviqat



qrupunun üzvü Əliziya Ağayev və bələdiyyə üzvlüyünə namizədlər Təranə Məmiyeva, Gülnar Abdullayeva, Eldəniz Heydərov, Əli İbadov, Mahir Rəhimov Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsasında xalqa xidmət prinsipinin dayandığını diqqətə çatdırıblar. Bələdiyyə seçkilərinin ictimai-siyasi önəmindən bəhs edən natiqlər YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək hər kəsi fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

# Yüksək rifah, vətəndaş məmnunluğu...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Yasamal rayonu, Yasamal bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, bu gün müstəqil Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır: “Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti ürəkdən dəstəkləyir, qazanılan nailiyyətləri olduqca yüksək qiymətləndirirlər”.

B.Nəbiyev bildirib ki, yüksək rifah və vətəndaş məmnunluğu ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas prinsipləridir: “Yerli özünüidarəetmə orqanlarının təkmilləşdirilməsi istiqamətində görülən işlər də bu baxımdan önəmlidir”.

Seçki qərargahının üzvü Zahid Cəfərov, təşviqat qrupunun üzvləri Rəna Mirzəzadə, Şölət Zeynalov və İlhamə Qəsəbova, bələdiyyə üzvlüyünə namizədlər Bəhram Şeydayev və Nicat İsmayılov YAP-ın seçki proqramı barədə ətraflı məlumat veriblər. Onlar vətəndaşların rifahı və mənafeyi naminə seçiciləri bələdiyyə seçkilərində fəal iştirak edərək YAP-ın namizədlərinə dəstək göstərməyə çağırıblar.



Seçicilər Gülarə Məhərrəmova, Ruqiyyə Babayeva və digərləri çıxış edərək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması önəmli hədəflərdəndir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Sabunçu rayonu, Zabrat və Kürdəxanı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Sabunçu rayon təşkilatı sədrinin müavini Zülfüqar Cəfərov Azərbaycanda bələdiyyə institutunun fəaliyyətinin gücləndirilməsinin demokratik inkişaf siyasətinin mühüm tərkib hissəsi olduğunu bildirib. O, Prezident İlham Əliyevin 2024-cü ildə imzaladığı “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” qanunun əhəmiyyətinə diqqəti cəlb edərək deyib: “Başlıca məqsəd bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, yerli özünüidarəetmənin səmərəliliyinin yüksəldilməsi və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasıdır”.

Bələdiyyə üzvlüyünə namizədlər Nailə Nəsirova,



Hikmət Alıyev, Talut Hüseynov, Ağaəli Məsimov, Heyran Kərimova, Lətafət Zeynalova, Amin Nəzərli bələdiyyələrin sosial-iqtisadi məsələlərin həllində rolundan bəhs ediblər. YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verilərək yerli özünüidarəetmədə vətəndaşların rolunun artırılmasının əhəmiyyəti vurğulanıb.

Seçicilər Yalçın İbrahimov, Emin Əliyev, Sevda Məlikova və başqaları YAP-ın hər zaman xalqın etimadını doğrultduğunu və qarşıdan gələn bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Xalqın etimadı böyük məsuliyyətdir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Tərtər rayonu, Buruc bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədləri seçicilərlə görüş keçirib.



YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycanın tərəqqiyə nail olduğunu bildirib. Müstəqil dövlətçiliyin möhkəmləndirilməsi naminə çoxsaylı milli məqsədlər müvəffəqiyyətlə reallaşdırılıb və qarşıda yeni hə-



dəflər dayanır.

Rayon təşkilatının sədr müavini Azər Ağayev, bələdiyyə üzvlüyünə namizədlər Tünzalə Vəliyeva və Mehman Nəsibov bələdiyyələrin inkişafı istiqamətində YAP-ın başlıca hədəflərini diqqətə çatdırıb, seçicilərin partiya tərəfindən irəli sürülən namizədlərə etimad göstərəcəklərinə inamlarını ifadə ediblər. “YAP üzvləri xalqın etimadını böyük məsuliyyət kimi qəbul edərək bu sahədə konkret nəticələrin əldə olunmasına hesablanan məqsədyönlü fəaliyyət həyata keçirmək əzmindədirlər”, - deyə vurğulanıb.

# Tovuzlu seçicilər inkişafa səs verəcəklər!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Tovuz rayonu, Tovuz və Əlibəyli bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov qeyd edib ki, Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə müasir dövlətçilik tarixinin möhtəşəm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə yekun vuraraq yeni dövrə qədəm qoyub: “Artıq yeni çağırışlar və reallıqlar fonunda ölkəmizin qarşı-



sında növbəti hədəfləri gerçəkləşdirmək vəzifəsi durur. Aparıcı siyasi qüvvə olan Yeni Azərbaycan Partiyası bu prosesə öz layiqli töhfələrini verəcəkdir”.

Seçki qərargahının üzvləri İlqar Kərimov və Mücaməddin Axundov YAP-ın bələdiyyə seçkilərinə qələbə əzmi ilə getdiyini bildirib. Partiyanın seçki proqramı barədə ətraflı məlumat verən natiqlər seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar. “Əminik ki, tovuzlu seçicilər inkişafa səs verəcəklər!”, - deyə vurğulanıb.

# Məqsədyönlü fəaliyyət yeni uğurlara yol açır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Oğuz rayonu, Padar bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.



YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov bildirib ki, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol müstəqil Azərbaycanın inkişaf tarixidir. O, partiyanın milli maraqları daim üstün tutduğunu diqqətə çatdırıb: “Öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası yeni uğurlara imza atacaqdır”.

Seçki qərargahının üzvləri Ehtibar Yusubov, Mehman Ramazanov, bələdiyyə üzvlüyünə namizədlər Məhəmməd Yolçuyev, Eynur Ağammədov, Aynurə Səfərova, Eyvaz Şahsöyünov, Vahid Yusubov, Nuranə Adılova və Şamil Yolçuyev Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışıblar. Məqsədyönlü fəaliyyətin yeni nailiyyətlərə yol açdığını söyləyən natiqlər YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək yerli özünüidarəetmənin təkmilləşdirilməsinin önəmini vurğulayıblar.



Seçicilər İkram Hacıyev, Abil İsmayılov, Ədalət Şahseynov və digərləri YAP-ın namizədlərinə dəstək ifadə ediblər.

# Bələdiyyələrin idarəetmədə rolunun gücləndirilməsi mühüm məqsədlərdəndir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağcabədi rayonu, Ağcabədi və Boyat bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov qeyd edib ki, Azərbaycan dünyada inkişaf diyarı, multikultural dəyərlərin və tolerantlıq mühitinin hökm sürdüyü sabitlik adası, beynəlxalq dialoq və əməkdaşlıq məkanı, qalib və qüdrətli dövlət kimi tanınır: “Ümummilli Lider Heydər Əliyevin ideyalarının təntənəsinin təzahürü olan müasir Azərbaycan şanlı Zəfərdən yeni zirvələrə doğru inamla irəliləməkdədir”.



YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, dövlət başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də növbəti onillikdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi kimi prioritetlər öz əksini tapıb ki, bu hədəflərin yerinə yetirilməsində yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin də üzərinə mühüm vəzifə-



lər düşür.

Bələdiyyə üzvlüyünə namizədlər İsmayıl Rəsulov, Samirə Xudiyeva, Nadir Qürbətov, Vüsalə Əliyeva və Natiq Cəfərov YAP-ın seçki proqramında əksini tapan hədəfləri diqqətə çatdırıblar. Vurğulanıb ki, bələdiyyələrin idarəetmədə rolunun gücləndirilməsi mühüm məqsədlərdəndir.

Seçicilərdən Fazil Əliyev, Ceyhun Abbasov, Yaqut Hüseynova və digərləri Azərbaycanın dinamik inkişafına müstəsna töhfələr verən Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədləri dəstəkləyəcəklərini bildiriblər.

# Rusiya özünə yeni düşmən axtarır...

Bu gün Rusiyada hakimiyyət dairələrinin sifarişlərini yerinə yetirən bəzi media qurumları ölkəmizə və xalqımıza qarşı qarayaxma kampaniyası aparır, xalqımızın ünvanına təhqirlər yağdırırlar. Hər kəsə aydındır ki, Rusiyada media qurumlarının heç bir razılıq olmadan Azərbaycana qarşı həqarətlər səsləndirməsi qeyri-mümkündür. Bu ölkədə media qurumları hakimiyyət dairələrinin iradəsindən kənar addım ata bilməzlər. Əgər belə olsa idi, həmin qurumlara qarşı çox ciddi tədbirlər görülərdi. Ancaq bu, baş vermir...

Bu gün Rusiyada Azərbaycanı təhqir edənlər dövlət orqanlarının nəzarəti altındadır. Onlar aidiyyəti orqanların icazəsi olmadan heç bir addım ata bilməzlər. Rusiyadakı media qurumları ölkəmizi məhz onların dili ilə təhqir edirlər. Sözsüz ki, bu prosesi idarə edən də əli hər yerə çatan aidiyyatı təhlükəsizlik orqanlarıdır.

Onların tapşırıqları ilə Rusiyadakı azərbaycanlılar gah neonasistlərin dili ilə hədələnir, gah da "Komsomolskaya pravda" və digər informasiya portallarında Azərbaycana qarşı heç bir əsası olmayan, yalan məlumatlar yayılır, ölkəmizə qarşı böhtanlar atılır və təhqirlər yağdırılır. Əslində, onlar bu cür davranışlar sərgiləməklə özlərini gülünc vəziyyətə qoyurlar.

Azərbaycana qarşı bu münasibət onu deməyə əsas verir ki, Rusiya özünü dost kimi aparmır və qonşusuna qarşı düşmən münasibət bəsləməyə üstünlük verir.

2024-cü il dekabrın 25-də Rusiya səmasında vurulan "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin qəzaya uğramasının səbəblərinə obyektiv münasibət sərgiləmək, öz ölkəsinin səhvini etiraf etmək və Azərbaycan xalqından üzür istəmək əvəzinə ölkəmizə və xalqımıza təhqirlər yağdırmaq və hədə-qorxuya əl atmalarına həyasızlıqdan başqa ad vermək olmaz.

Rusiyada naməlum olan pilotların danışıqlarını yaymaqla izi azdırmağa, məsələni əsas mətləbdən yayındırmaları bəs deyil, hələ Azərbaycanı günahkar çıxarmağa çalışırlar.

Xatırladaq ki, Prezident İlham Əliyev öz intellektual etikasına sığmaraq son müsahibəsində sərnişin təyyarəsinin qəzaya uğramasında məsuliyyət daşıyan şəxslərin cəzalandırılmasına və həlak olanların ailələrinə və zərər çəkənlərə kompensasiya ödənilməsinin vacibliyini diqqətə çatdırdı.

Azərbaycan öz haqlı məsələsini Rusiya ilə diplomatik tərzdə həll etməyə çalışır. Amma biz görürük ki, şimal qonşumuz dost ölkə kimi davranmır, Azərbaycanın suallarına cavab vermək, məsələni obyektiv araşdırmaq və üzərinə düşən öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır.



Azərbaycan təyyarənin qəzaya uğramasında birbaşa günahı olan şəxslərin məsuliliyyətə cəlb olunmasını tələb edir və bu məsələdə tam haqlıdır. Çünki istənilən ölkə, hətta Rusiyanın özü belə bu addımı atardı.

Rusiyanın belə ucuz davranışı təəssüf doğurur. Özünü həqiqi dost və qonşu kimi aparan ölkə öz dostuna və qonşusuna bu cür davranış sərgiləməz.

Rusiyadan fərqli olaraq, Azərbaycan etik məsələlərə çox dəyər verir. Ölkəmizdə bu günə qədər heç media qurumu, hətta ekspertlər və sosial media istifadəçiləri əndazəni aşmayıblar və qonşu ölkələrə təhqirə və böhtana yol verməyiblər. Rusiya media qurumlarının ölkəmizə qarşı ucuz şouları qətiyyən yolverilməzdir.

Azərbaycan dövləti və xalqı Rusiyanın məsuliyyətli davranmasını, günahkarların tez bir zamanda cəzalandırılmasını və təyyarə qəzasında həlak olanların ailələrinə və zərər çəkənlərə kompensasiya ödənilməsini gözləyir. Azərbaycan haqlı mövqeyindən geri çəkilməyəcək.

# 100 illik saziş...

## Britaniya Şərqi Avropada güc mərkəzinə çevrilir

**Britaniya Baş naziri Keir Starmer yanvarın 16-da Ukraynaya elan olunmamış səfər edib. Səfər zamanı Britaniya Baş naziri Keir Starmer və Ukrayna Prezidenti Volodimir Zelenski Britaniya-Ukrayna münasibətlərində yeni tarixi səhifə açan "100 illik tərəfdaşlıq" sazişi imzalayıblar.**

**Qərb və Ukrayna mediasının məlumatına görə, bu saziş iki ölkə arasındakı diplomatik-siyasi, iqtisadi-ticarət, hərbi-təhlükəsizlik, enerji, elmi, mədəni və bir çox sahələrdə qarşılıqlı əməkdaşlığın dərinləşməsinə yönəlib.**

**Qeyd edək ki, bundan əvvəl, Britaniya ilə Ukrayna arasında 2020-ci ildə iqtisadi tərəfdaşlıq müqaviləsi, 2024-cü ilin yanvarında təhlükəsizlik sazişi də imzalanıb.**

**10 hissədən ibarət olan yeni sazişdə hərbi-müdafiə və hərbi-təhlükəsizlik sahələrində birgə əməkdaşlığa, o cümlədən Ukraynanın NATO-ya üzv olması üçün imkanların yaradılmasına xüsusi əhəmiyyət verilib.**

**İmzalanma mərasimindən sonra K.Starmer və V.Zelenski birgə mətbuat konfrası keçiriblər. K.Starmer iki ölkə arasında sazişin imzalanmasını tarixi hadisə hesab edib: "Ukrayna ilə Britaniya arasında münasibətlər bundan sonra daha da inkişaf edəcək. Əvvəlki dövrlərdən fərqli olaraq hər iki ölkə daha da bir-birinə yaxınlaşıb. Mədəniyyət, təhsil, elm və texnologiya sahələrində də əməkdaşlıq genişlənəcək ".**

**Ukraynaya hərbi yardımın davam etdirilməsi məsələsinə toxunan K.Starmer bildirib ki, Britaniya Ukraynaya 2,6 milyard dollardan çox kredit ayırmağı planlaşdırır. Onun sözlərinə görə, Ukraynaya veriləcək kredit Rusiyanın dondurulmuş aktivləri hesabına həyata keçiriləcək. Starmer, həmçinin Britaniyanın Ukrayna ordusunu müasir artilleriya silahları və hava hücumundan müdafiə sistemləri ilə təmin edəcəyini, eləcə də Ukraynaya 3,6 milyard dollar civarında hərbi dəstək də göstərəcəyini bəyan edib.**

### Sazişin Ukraynaya hansı üstünlükləri qazandıracaq?

Qeyd etdiyimiz kimi, Britaniya ilə Ukrayna arasında imzalanan hərtərəfli tərəfdaşlıq sazişi bir çox sahələrdə münasibətləri daha da dərinləşdirəcək. İstər diplomatik-siyasi, iqtisadi-ticarət, istərsə də hərbi-təhlükəsizlik, hətta mədəni-elmi sahələrdə ikitərəfli əməkdaşlıq Ukraynaya bir çox üstünlüklər qazandıracaq.

İlk növbədə, Britaniya Ukraynanın təhlükəsizliyinin təminatçısına çevriləcək. Britaniya Ukrayna ordusunu müasir silah-sursatla təmin etməklə yanaşı onun müdafiə qabiliyyətini gücləndirəcək. Ukrayna Britaniyanın dəstəyi ilə özünün təhlükəsizlik strategiyasını müəyyənləşdirməsi də ehtimal olunur. Ukraynanın öz hərbi-müdafiə qabiliyyətini artırmaq üçün Britaniyanın hərbi proqramlarından istifadə edəcəyi də də mümkündür.

Eyni zamanda Britaniyanın maliyyə dəstəyi hesabına Ukraynada iqtisadi və təhlükəsizlik cəhətdən önəmli olan, dəfələrlə hücuma məruz qalan mühüm sənaye, enerji və elektrik infrastrukturu yenidən qurulacaq. Ukrayna və Britaniya həm enerji, həm də iqtisadi-ticarət sahələrində birgə layihələr həyata keçirəcəklər.



### Britaniya nə əldə edəcək?

Sözsüz ki, Britaniya da sazişin imkanlarından yararlanacaq. İmzalanmış sənəd Britaniya üçün də əhəmiyyətlidir. Şübhəsiz ki, bu saziş çərçivəsində Britaniya Ukraynanın iqtisadi, enerji və sənaye sektoruna milyardlarla investisiya yatıracaq və bu ölkənin iqtisadi sektorunun qurulmasında geniş paya malik olacaq.

Britaniyanın hərbi personalının Ukrayna ordusunun möhkəmlənməsinə töhfə verməsinə gəlincə, yaxın zamanda Britaniya zabitlərinin Ukrayna ordusu ilə birlikdə hərbi təlimlər həyata keçirməsinə və Ukrayna ordusunun NATO standartlarına uyğunlaşmasına yardımcı olmalarının şahidi olacağıq. Britaniya ilə Ukrayna arasında diplomatik-siyasi və təhlükəsizlik sahələrində qarşılıqlı məsləhətləşmələr daha da intensiv şəkildə aparılacaq.

Digər önəmli məqam isə Britaniyanın elmi-tədqiqat mərkəzləri Ukraynada öz ofislərini aça bilər. Onlar yalnız bu ölkədə Britaniyanın maraqları çərçivəsində fəaliyyət göstərəcəklər.

Bu baxımdan, yaxın gələcəkdə Britaniyanın Şərqi Avropada geosiyasi və geoiqtisadi güc mərkəzinə çevrilə bilər.

# Sükuta sığınmaq, zənciri qırmaq

## Kamilo Xose Selanın "Paskual Duartenin ailəsi" romanı haqqında

əvvəli ötən sayımızda

Oğlu doğulanda da Paskual sevinə bilmir, çün sevinmək ona haramdır, ondan ötrü hər sevinc arxasında gizlətdiyi böyük bir fəlakətin çuğuludur. Sevinc ona rahatlıq yox, qorxu, səksəkə gətirir, onun belaya həssas sümüklərini sızıldadır: "Haradan biləydik ki, dünyanı nizama salan Tanrı arzumuzu, bütün var-yoxumuzu - oğlumuzu əlimizdən alacaq, onu həyata qədəm qoymamış itirəcəyik! Niyə sevgi həmişə ona ən çox ehtiyac olanda bizi tərk edir?.. İzahını bilməsəm də, uşaqla bu qədər fərəhlənməyimiz məni çox narahat eləyirdi. Ömür boyu fəlakəti əvvəlcədən duymuşam - bilmirəm bu, mənim xeyrimədir, ya ziyanıma. Üstündən bir neçə ay keçəndən sonra elə bil bu duyumum korşalmasın deyə ürəyimə daman yenə doğru çıxdı..."

Oğlunu alandan sonra da fələk onun yaxasını buraxmır, özünü təslim olmuş kimi göstərməyə çalışsa da, Paskual dərdi azdıra bilmir: "Deyirdim vaxt keçdikcə dərd dərilmiş qızılgül kimi solar, mümkün qədər az əzab çəkmək üçün sükutumu ən qiymətli şey kimi qoruyurdum". İçinə çəkilib səssizliyə, seyrə dalmaq, hərəkətsizlik, sükunət - asketizmin, zahidliyin min illərin sınağından çıxmış üsulu həyatın təcavüzündən qorunmağın tək olmasa da, tək-tək yolundan biridir. Canından kəsib verdiyi böyük qurbandan sonra misilsiz nemət saydığı sükuta sığınmağı Paskualın bu gerçəkdən xəbərdar olduğunu göstərir. Ancaq içində qalanmış qisas tonqalı, üsyan alovu onun sükutunu oyadır, onun təşnə qəlbinə dinclik vermir.

Belə bir dincliyi o yalnız türmədə, öz etiraflarını qələmə aldığı zaman tapır - doğrudan da, yaradıcılıq ən böyük terapiyadır. Üstəlik də, zindanda o daha öz bədəninin qayğılarıyla əlləşmir, canına müsəllət olmuş cinlərlə, kabuslarla süpürləşmir, qorxuları, dərdləriylə güləşmir - bunların hamısını Paskual cisminə bükük cəllada təhvil verib, edama hazırlanan bədəni artıq onun deyil, indi o, ömründə həm ilk, həm də tək dəfə təmiz, qılafsız ruh kimi yaşamaq imkanı qazanıb: "Günaha batmış qəlbin dinclik tapması cadar-cadar olmuş torpağa yağış yağması kimidir: quruyan torpaq münbitləşir, bəhrə verir. Ona görə belə deyirəm ki, çox, lazım olduğundan da çox illər ərzində dincliyin - göylərin xeyir-duası, neməti olduğunu, qorxu içində yaşayan biz zavallıların bel bağladığı ən qiymətli nemət olduğunu anlamamışdım. İndi sevgiylə dinclik içimi nurla dolduranda onlardan elə həvəslə, elə sevinclə həzz alıram ki, qorxuram - halbuki ömrümün sonuna az qalıb, lap az qalıb! - vaxtım çatana qədər bu sevinc tükənə. Əgər həmin dinclik qismətimə bir neçə il əvvəl düşsəydi, hökmən rahib olardım, çünki bu dinclikdə o qədər işıq, o qədər səadət var, yəqin onda da mənə xoş gələrdi... Mən üzündən mehribanlıq yağan zahidə, göydə quşa, suda balığa, hətta kol dalında marığa yatmış yırtıcıya həsəd aparıram - onları yaddaşı incitmir".

***

Fələyi yanıldıb iz azdırmaq üçün o, şələ-küləsini götürüb yaşadığı bölgədən uzaqlaşır. Əvvəl qatarla Madridə yollanır, niyyəti budur ki, oradan da liman şəhərlərindən birinə gedib sərnişin gəmisiylə Amerikaya üzsün, bununla da yaşadığı həyatın üstündən xətt çəkib yeni bir həyata başlasın.

Ancaq taledən bu yolla qurtulmaq mümkün deyil, insan hara gedir getsin, canına yüklənmiş, qanına yeridilmiş qismətindən qaça bilməz. Tale deyilən nəhs qismətdən qurtulmağın tək yolu ona qalib gəlməkdir, genlərimizə yüklənmiş şeytani proqramları qəlbin açarıyla çözüb, iblisin yuva qurduğu can zirzəmisinə saf işıq çəkməkdir. Yoxsa tale dediyimiz bu ağır şələ duz yükütək kürəyimizdən basdıqca basacaq.

Maddi çətinlik ucbatından Amerikaya getmək ona qismət olmur. Üstəlik də, günahlarıyla suvardığı doğma torpaq, cinayətlərinin vətəni onu şiddətlə özünə çəkir. Qatil həmişə qətl törətdiyi yerə dartınır, çünki işlədiyi əməlin fəsadlarına, dağıntılarına şahid olmaq, o fəsadlardan, dağıntılardan əzab dolu maniakal həzz almaq istəyir. Beləliklə, bu istək başıbəlalı Paskual Duarteni iki illik ayrılıqdan sonra yenidən öz yurduna çəkib gətirir.

***

Məlum olur ki, arvadı Lola bir zaman bacısı Rosarionu da yoldan sapdırmış, hələ üstəlik bununla öyünən Paskualı alçaltmaqdan zövq almış Ədabaz ləqəbli yaramazdan hamilədir. Beləcə, tale yenə qol çırmayıb yeni qanlı əməliyyata başlayır. Paskual əvvəlcə arvadı Lolanı boğub öldürür: "Əqrəblərin sinəmdəki yuvası dağıldı, damarımın hər damla qanından məni sancan ilanlar baş qaldırdı. Arvadımın qatilini, bacımı rüsvay eləyəni, mənə hər şeydən çox dərd gətirən adamı axtarmağa başladım. Gizləndiyinə görə onu tapmaq asan deyildi. Tülüngü mənim gəlişimdən xəbər tutmuşdu, dörd ay Almendralexoda gözə görünmədi..."

Qardaşının evə qayıtdığını eşidən Rosario da şəhərdə bənd almır. Artıq o da yaşlanıb, üz-gözü qırışıb, çox güman, bazarı da kasaddır. Bacısının sayəsində Paskual bir müddət dinclik tapır, uşaqlıqdan möhtac olduğu ana şəfqətini də o, yanımcıl Rosariodan alır: "Çalışırdı həmişə köynəyim təmiz olsun, təsərrüfatı idarə eləməyinə də söz ola bilməzdi, üstəlik, mənim üçün üçdən-beşdən qənaət də eləyirdi, gec gələndə yeməyimi isti saxlayırdı... Belə həyat ürəyimcəydi! Gündüzlərim qu tükütək yüngüldü, gecələrim monastırdakı kimi sakitdi, əvvəlki pis fikirlər elə bil yaxamdan əl çəkirdi. La Korunyadakı narahat həyatım uzaqda qalmışdı, bıçaq davalarım isə tamam yadımdan çıxmışdı. Lolanın xatirəsi ürəyimdə yara kimi sızıldasa da, tədricən bu yara da qaysaq bağlayır, keçənlər yavaş-yavaş unudulurdu. Ancaq məni inadla təqib eləyən bəxtim, uğursuz bəxtim onları təzədən yada saldı".

Göründüyü kimi, Paskual Duartenin bu dünyada dinc, sakit yaşamaqdan uca, ondan böyük, ondan müqəddəs arzusu yoxdur. Necə deyərlər, ağlı başında olan hər Allah bəndəsi kimi.

***

Bu məqamda Ədabaz kənddə peyda olub Rosarionu aparmağa gəldiyini bildirir. Paskual onun Lolanın ölümünə, Rosarionun bədbəxtliyinə bais olduğunu deyib Ədabazı yüngül xəsarətlərlə uzaqlaşdırmağa çalışır. Ancaq Ədabaz gözləndiyindən də həyasızdır, özünü heç nədə təqsirkar saymır, zərrə qədər vicdan əzabı çəkmir. Paskualın hər iradına təxminən belə cavab verir ki, neyləmişəmsə düz eləmişəm, əcəb eləmişəm. Sonda cadugər fələk istədiyinə çatır, Paskual yenidən əlini qana batırmaq istəməsə də, Ədabazı öldürməyə məcbur olur, çünki onu susdurmağın bundan başqa yolu qalmır.

davamı növbəti sayımızda



F.Uğurlu

